Azərbaycan Milli Elmlər Akademiyası
NAXÇIVAN BÖLMƏSİ
ELEKTRON KİTABXANA



# *Ümummilli lider*

# *HEYDƏR ƏLİYEV-100*

***Daycest***

Azərbaycan Milli Elmlər Akademiyası
NAXÇIVAN BÖLMƏSİ
ELEKTRON KİTABXANA

# *Ümummilli lider*
# *HEYDƏR ƏLİYEV-100*

***Daycest***

**Naxçıvan-2023**

**Tərtibçi:** **Məlahət Əhmədli**

**Redaktoru:** **Sahab Əliyeva**

**Ümummilli lider Heydər Əliyev – 100: Daycest** /tərt. ed. M.Əhmədli; red. S.Əliyeva.– Naxçıvan, 2023.– 15 s.

**©AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası, 2023**

## Tərtibçidən

Daycest - (“digest”- ingilis dilindən tərcümədə “xülasə”, “toplu” mənasını verir) çap olunmuş dövri nəşrlər haqqında qısa xülasədən ibarət siyahı və ya çap kataloqu kimi də izah edilir. Daycestlərin hazırlanması müəyyən bir mövzu və ya kitabxanaçıları daha çox narahat edən hər hansı aktual məsələ ilə bağlı daha dərin və ətraflı tədqiqat aparmağa, müxtəlif mənbələrdə çap olunmuş materialların (əsasən dövri nəşrlər) qısa xülasəsini əks etdirməklə onu geniş ictimaiyyətin diqqətinə çatdırmağa xidmət edir. Daycestdə məqalələr illər üzrə əlifba ardıcıllığı ilə verilir.

Sizə təqdim edəcəyimiz Daycestdə AMEA Naxçıvan Bölməsinin əməkdaşlarının və müxtəlif müəlliflərin Ulu öndər Heydər Əliyevin həyatı, fəaliyyəti ilə bağlı yazdıqları məqalələr araşdırılmış, qısa məzmunları verilmişdir.

**Ünvan:** AZ-7000 Naxçıvan şəh. H.Əliyev prospekti 35

**E-mail:** amea@nmr.az

## 2013

***Hacıyev İ. Heydər Əliyev-dünya şöhrətli siyasətçi / İsmayıl Hacıyev // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, Xüsusi buraxılış, 2013, s.9-14***

Məqalədə Ulu öndər Heydər Əliyevin dünya şöhrəti qazanmış siyasəti, uğurları, millət qayğısı və sevgisi əks olunmuşdur. Qeyd olunmuşdur ki, idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi tanınan liderin daxili və xarici siyasəti ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir.

***

***Qədirzadə Q. Heydər Əliyev şəxsiyyəti və milli-mənəvi inkişaf / Qadir Qədirzadə// Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, Xüsusi buraxılış, 2013, s.23-29***

Məqalədə Ümummilli lider Heydər Əliyevin həyatının, hakimiyyətinin bütün dönəmlərində Azərbaycançılıq, millilik və millətə bağlılıq məsələlərinin öndə dayanması qeyd edilmişdir. Heydər Əliyevin təbii-coğrafi, siyasi cəhətdən spesifik xüsusiyyətləri olan Naxçıvan diyarında doğulması, ailədə Azərbaycan türklərinə məxsus şəkildə milli, mənəvi ruhda tərbiyə alması, xüsusən özünəməxsus, yüksək fərdi keyfiyyətləri onun gələcək həyat yolunun təyinedicisi idi. Heç təsadüfü deyil ki, bu ailənin bütün üzvləri Azərbaycançılıq, vətənpərvərlik, milli münasibətlərdə həssaslıq ruhunda tərbiyə olunmaqla Azərbaycanın hərtərəfli inkişafı, milli müstəqilliyi, maddi və mənəvi dəyərlərinin qorunub saxlanılmasında geniş fəaliyyət göstərmişlər.

## 2014

**Abbasova S. Heydər Əliyev və Azərbaycan Respublikasinda Dövlət qadın siyasətinin əsas istiqamətləri /Abbasova Sevinc // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, 2014, №1, s.86-97**

Məqalədə Azərbaycan Respublikasında Heydər Əliyevin başçılığı altında dövlət qadın siyasətinin əsas istiqamətlərindən bəhs edilir. Burada vurğulanır ki, Heydər Əliyevin qətiyyətli addımları nəticəsində qadınların ictimai-siyasi transformasiyasına şərait yarandı. Gerçəkləşdirilən siyasət nəticəsində gender bərabərliyinin hüquqi aspektləri əməli surətdə təmin olunmuşdur, Azərbaycan qadını ictimai, iqtisadi və mədəni həyata daha fəal cəlb edilmiş, dövlət və hakimiyyət orqanlarında daha geniş təmsil olunmuşdur. Azərbaycan Respublikası tərəfindən cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında bir çox aktlar və sənətləri imzalanmışdır.

***

**Səfərli H. Heydər Əliyevin Naxçıvan dövr fəaliyyəti (22 iyul 1990 – 2 sentyabr 1991-ci) / Hacıfəxrəddin Səfərli // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, 2014, №1, s.28-36**

Məqalədə Ümummillilider Heydər Əliyevin Moskvadan Naxçıvana qayıtdıqdan sonra Naxçıvanda sıravi vətəndaş və deputat kimi Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizədən bəhs olunur.

# 2015

**Vəzirov H. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyatı / Həbib Vəzirov // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, 2015, №1, s.268-276**

Məqalədə Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında iqtisadiyyatın inkişafı, səmərəli idarə edilməsi və dahi liderin məqsədyönlü işi nəticəsində tezliklə iqtisadi islahatların həyata keçirilməsindən bəhs edilmişdir.

# 2016

***[Hacıyev İ. Heydər Əliyev və Azərbaycanda milli münasibətlər / İsmayıl Hacıyev // NDU Elmi əsərlər: Elmi jurnal, 2016 , 6 (75) - s. 3-8](#)***

Məqalədə multikulturalizmin mahiyyəti, Heydər Əliyevin elmi-nəzəri irsinin mədəni müxtəlifliyi, Azərbaycanda yaşayan bütün xalqların bərabərliyi, Azərbaycan əhalisinin etnodemoqrafik müxtəlifliyi açıqlanır. Müəllif qeyd edir ki, XX əsrin 20-ci illərində Şimali Azərbaycanda etnik qrupların sayı 95 olmasına baxmayaraq, həmin əsrin 90-cı illərində onların sayı 115-ə çatmışdır. Azərbaycan əhalisi çoxmillətli olsa da, onlar arasında həmişə harmonik birgə yaşayış olub, heç vaxt münaqişə və fikir ayrılığı olmayıb.

***

***Həbibbəyli İ. Böyük xilaskarlıq missiyasi / İsa Həbibbəyli // Azərbaycan qəz., 2016, 15 iyun , № 128 - s. 3***

Məqalədə XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda yaranmış ağır siyasi-hərbi vəziyyət, ictimai-iqtisadi böhran və xalqın Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin tarixin bu cür keşməkeşli məqamında xalqının xilaskarı kimi böyük missiyasından geniş bəhs edilir.

# 2017

***Newtimes.az***

***Heydər Əliyev irsi: dövlət quruculuğu kursunun aktual aspektləri***

***İki sahil qəz., 2017, 11 may, № 82.-s.14,18-19***

Məqalədə Ümummilli liderin dövlət quruculuğu kursunun bir sıra əhəmiyyətli aspektləri təhlil edilib. Burada xarici və daxili siyasət sahəsində atılan

addımların analizi verilib. Göstərilib ki, Ulu öndərin çox mürəkkəb bir geosiyasi şəraitdə səmərəli dövlət quruculuğu konsepsiyasını işləyib hazırlaması tarixi hadisədir. Bu, faktiki olaraq, Azərbaycan milli dövlətçiliyini xilas etdi, sonrakı mərhələdə isə sürətli inkişafına təkan verdi. Həmin kontekstdə məqalədə xarici siyasətin prioritetləri üzərində geniş dayanılır. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət təhlil edilir. Bunlardan başqa, məqalədə dövlət quruculuğu prosesinin ümumi dinamikasını müəyyənləşdirən çoxlu sayda faktorlar tarixi rakursda şərh edilir. Heydər Əliyevin siyasi kursunu Prezident İlham Əliyevin inkişaf etdirdiyini təsdiq edən faktlar gətirilir və bunların fonunda müstəqil Azərbaycan dövlətinin perspektivləri təhlil olunur. Tarixi təcrübə sübut edir ki, müstəqilliyini əldə etmiş ölkələrdə dövlət quruculuğu kifayət qədər mürəkkəb prosesdir. İndi ekspertlər bir sıra ölkələrdə müstəqil dövlət quruculuğu işinin baş tutmadığından bəhs edirlər. Azərbaycanda isə Ulu öndər Heydər Əliyevin yaratdığı müstəqil dövlət qurucUluğu modeli zamanın sınaqlarından uğurla çıxaraq, ölkəni bütün sahələrdə tərəqqiyə aparır. Bu prosesin çox müxtəlif aspektləri vardır. Onların hər birini bir məqalədə analiz etmək imkan xaricindədir. Lakin bir sıra mühüm tərəflər mövcuddur ki, bunların üzərində geniş dayanmaq olar. Biz bu məqsədlə Ulu öndərin dövlət quruculuğu siyasətinin bir sıra müddəalarını təhlil etməyə çalışdıq. Məsələyə dövlət quruculuğunun konkret praktiki şərtləri daxilində yanaşılıb.

# 2018

***Əlizadə A. Əbədiyaşarlıq rəmzi / Akif Əlizadə // Azərbaycan qəz., 2018, 9 may, № 104, s. 1,5***

Məqalədə Ümummillilider Heydər Əliyevin bir hakimiyyət ustadı, qətiyyətli dövlət başçısı, müdrik siyasətçi, məsuliyyətli vətəndaş, cəsur və tədbirli sərkərdə, vətənini və millətini hədsiz məhəbbətlə sevən bir insan kimi çətin anlarda hər zaman millətinin yanında olmasından bəhs edilir. Müasir Azərbaycanın ictimai-mədəni həyatının elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin qurucluq fəaliyyətinin fundamental nəticələri aydın  şəkildə görünməsin.

Müəllif Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də atılan uğurlu addımlardan bəhs etmişdir.

***

**_Əhmədov N. Heydər Əliyevin Azərbaycana qayıdışı və Naxçıvan dövrü fəaliyyəti mətbuatın yaddaşında / Namiq Əhmədov // Xalq qəzeti, 2018 , 24 iyul, № 162, s. 3_**

Məqalədə Ümummillil ider Heydər Əliyevin qayıdışdan sonra doğma yurdu Naxçıvandakı ümidsizliyə son qoyması, hər sahədə olduğu kimi, mətbuatın da səsi olması və Naxçıvan sakinləri ilə görüşlərindən bəhs edilmişdir. Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətlər göstərmiş, ideyaları, zəkası, biliyi, idarəçilik təcrübəsi ilə bu günümüzə, sabahımıza bələdçilik edən Ümummillilider Heydər Əliyevin siyasi fəaliyyətində 1990-1993-cü illər Naxçıvan dövrü mühüm yer tutur. Naxçıvandan verilən materiallarda xalqın azadlıq səsi eşidilməkdə, böyük siyasətçiyə Ümummilli məhəbbət və ehtiram açıq duyulmaqda idi. Naxçıvanla bağlı xəbərlərə qoyulan qadağalar getdikcə kəskinləşsə də, hədə və təhdidlər artsa da, bu qəzetlərin cəsarətli, fədakar nümayəndələri Naxçıvan həqiqətləri və Heydər Əliyevin fəaliyyəti ilə bağlı yazılara və müxtəlif materiallara müntəzəm yer ayırmalarını özlərinin vətəndaşlıq və jurnalist borcu saymışdılar. Müəllif eyni zamanda qeyd etmişdir ki, o zamankı yerli və xarici jurnalistlər üçün 27 oktyabrda mətbuat konfransı keçirən Ulu öndər Heydər Əliyev bu dəfə də müdrik siyasəti ilə Naxçıvanda sakitliyə nail oldu. Bir gün sonra Naxçıvan Televiziyası ilə xalqa müraciət edən Heydər Əliyev əhalini şayiələrə uymamağa, yaranmış gərginliyi aradan qaldırmaq üçün sabitliyi gözləməyə çağırdı. Həmin gün "Naxçıvan" qəzeti isə Ümummilli liderin "İnsan xalq üçün yaşayanda xoşbəxt olur" sərlövhəli müsahibəsini dərc etdi.

***

***[Hacıyev İ. Milli dövlətçiliyimizin xilaskarı / İsmayıl Hacıyev // Xalq qəzeti, 2018, 15 iyun, № 134, s. 7]()***

Məqalədə Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı, Azərbaycanı məhv olmaqdan xilas etməsi ilə müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunub saxlanılmasına real zəmin yaratmasından bəhs edilmişdir.

# 2019

***Abdullayev Ə. Ulu öndər milli təhsilimizi islahatlar yoluna çıxardı / Əfqan Abdullayev // Xalq qəzeti, 2019, 14 iyun, № 128, s. 5***

Məqalədə Ulu öndər Heydər Əliyevin 1998-ci ildə ölkəmizdə təhsil sistemində islahatlar aparılmasına dair xüsusi sərəncamı ilə çox qısa müddət ərzində "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın hazırlanması və 1999-cu il iyunun 15-də ölkə başçısı tərəfindən təsdiq edilməsindən bəhs edilmişdir. Proqramda mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutUlurdu. Bu dövrdə milli təhsilimiz sürətli inkişaf yoluna çıxmışdır.

***

***Hacıyev İ. Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü / İsmayıl Hacıyev // Xalq qəzeti, 2019, 11 may, № 102, s. 9***

Məqalədə Ümummilli lider Heydər Əliyevin çoxşaxəli siyasi fəaliyyətində ölkəmizin ərazi bütövlüyünün qorunması strategiyasının müəyyən olunmasına və onun uğrunda mübarizəyə Azərbaycanın milli maraqlarının ən önəmli məsələlərindən biri kimi daim ciddi diqqət yetirməsindən bəhs edilmişdir. Qeyd edilmişdir ki, Prezident Heydər Əliyev Ermənistan – Azərbaycan münaqişəsinin, qondarma "Dağlıq Qarabağ problemi"nin, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və qorunması məsələlərinin həll edilməsində ilk gündən beynəlxalq

təşkilatların gücündən istifadə edilməsinə, onların vasitəsilə bu məsələlərin sülh yolu ilə həll edilməsinə çalışırdı.

# 2020

**_Hacıyev İ. Möhtəşəm qayıdışa aparan dönüş-Ümummilli lider Heydər Əliyevin Moskvadan Azərbaycana dönməsindən 30 il keçir / İsmayıl Hacıyev // Xalq qəzeti, 2020, 21 iyul, № 141, s. 3_**

Məqalədə Ümummilli lider, xalqın xilaskarı Heydər Əliyevin dövlət müstəqilliyi uğrunda mübarizə üçün 1993-cü ildə Moskvadan Azərbaycana qətiyyətli və cəsarətli dönüşündən bəhs edilmişdir. Eyni zamanda 90-cı il hadisələri zamanı ağır blokadada olan Naxçıvanda yaşayan Ulu öndər Heydər Əliyevin nüfuzu və uzaqgörən siyasəti nəticəsində Naxçıvan MR-in İran və Türkiyə ilə əlaqələrini yaratdı, Naxçıvanın həyatı tələbatını ödəmək üçün danışıqlar aparıldı, protokollar imzalandı. Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi iki ilə yaxın müddətdə Ümummilli lider Heydər Əliyev əsasını qoyduğu xarici əlaqələr sayəsində bölgəni gözlənilən fəlakətdən xilas etdi. Belə olan halda Azərbaycan rəhbərliyi Ulu öndər Heydər Əliyevi Bakıya çağırmağa məcbur oldu. Böyük Qayıdışın yolları Azərbaycanı qurtuluşa apardı.

***

**_Zülfüqarov R. Ulu öndər Heydər Əliyev və Azərbaycan dili / Rəşad Zülfüqarov // İki sahil qəz., 2020, 7 may, № 77, s. 3_**

Məqalədə Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 31 oktyabr-11 noyabr 1995-ci il tarixləri arasında dövlət dili məsələsinin Milli Məclisdə müzakirə olunması və yekdilliklə müstəqil Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili qəbul edilməsindən bəhs edilmişdir. Beləliklə, 12 noyabr 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının yeni Konstitusiyasının 21-ci maddəsi Azərbaycan dilini Azərbaycan Respublikasının dövlət dili elan etdi. Bütün bunlarla yanaşı, Ümummilli lider doğma dilimizi daha yüksək zirvələrə

qaldırmaq məqsədilə digər çoxsaylı tədbirlər həyata keçirdi. Həmçinin məqalədə Ulu öndərin 18 iyun 2001-ci ildə imzaladığı "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanlarının bu baxımdan xüsusi əhəmiyyəti də vurğulanır. Belə ki, bu fərmanlardan irəli gələn tələblərə uyğun olaraq ölkə ərazisində yaşayan hər kəs, bütün Azərbaycan vətəndaşları doğma dilimizi öyrənməli, bütün dövlət sənədləri bu dildə aparılmalıdır. Bundan başqa, 2 yanvar 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanunu"nun qəbul edilməsi dilimizin inkişaf etdirilməsi istiqamətində Ümummilli liderimizin atdığı tarixi addımlardan biridir.

# 2021

***Rəhimzadə V. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası / Vüqar Rəhimzadə // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, 2021, № 1, s. 41-45***

Məqalədə azərbaycançılıq ideologiyasının hər şeydən əvvəl ölkədə milli ahəngdarlığı təmin etməklə yanaşı, konfessiyalar və etnoslar arasında dinc və yanaşı yaşamağı təmin etməsi, azərbaycançılıq ideologiyasındakı vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, bazar iqtisadiyyatının, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədlərindən bəhs edilmişdir.

# 2022

***Quliyev M. Ədalətin zəfərini təmin edən sosial siyasət / Musa Quliyev // Azərbaycan qəz., 2022, 8 may, № 95, s. 8***

Məqalədə Azərbaycan xalqının rifah halını yüksəltmək üçün çalışan Heydər Əliyevin ölkənin sosial inkişafı üçün həyata keçirdiyi ardıcıl islahatlardan bəhs

edilir. Uğurla aparılan sistemli islahatlar nəticəsində 2009-cu ildə ölkəmizdə iqtisadi sahədə keçid dövrü başa çatdı, 2013-cü ildə isə cənab Prezident Azərbaycanın sosial dövlət olduğunu ölkə vətəndaşlarına və dünya ictimaiyyətinə bəyan etdi.Və zaman Ulu Öndərin uzaqgörənliyini təsdiq etmiş oldu.

***

**_Əsədov Ə. Əbədi olaraq Azərbaycanla birlikdə /Əli Əsədov // Azərbaycan qəz., 2022, 7 may, №96, s. 1-3_**

Məqalədə Heydər Əliyev fenomeninin xalqımızın tarixi taleyinin müəyyənləşməsində müstəsna rolu barədə geniş bəhs edilmişdir. Müəllif eyni zamanda Ulu öndərin hakimiyyəti illərinin birinci dövründə milli potensialın bütün spektrini - coğrafi, iqtisadi, mədəni, mənəvi imkanlarını vətənin hərtərəfli inkişafına, xalqın rifahının yüksəlişinə yönəldərək Azərbaycanı tərkibində olduğu ittifaqın özünə güvənən nüfuzlu subyektinə çevirməsi, qüdrətli çiyinlərinə daha ağır yük götürdüyü ikinci dövrdə - müstəqillik illərində isə ölkəni parçalanmaq, dünya xəritəsindən silinmək təhlükəsindən xilas etməsi, demokratik prinsiplərə, azad iqtisadi münasibətlərə əsaslanan suveren, hüquqi dövlət quruculuğu prosesini uğurla həyata keçirməsi haqqında yazmışdır.

***

**_Həbibbəyli İ. Müstəqillik yollarinda: Heydər Əliyevdən İlham Əliyevə / İsa Həbibbəyli // Azərbaycan qəz., 2022, 8 may, № 95, s. 1,6_**

Məqalədə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müstəqil dövlətçilik təliminin ölkəmizi və xalqımızı dövlət müstəqilliyinin çətin yollarından böyük uğurla keçərək, tarixin məsuliyyətli sınaqlarından alnıaçıq çıxarması, qarşıdakı daha böyük inkişafın strategiya və taktikasının müəyyənləşdirilməsini təmin etməsindən bəhs edilmişdir. Həyata keçirilən böyük islahatlar, atılan düşünülmüş addımlar Azərbaycan Respublikasının gələcək inkişaf yollarının möhkəm təməllərini təşkil etmişdir. Müəllif qeyd edir ki, Heydər Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik ənənələrinin tarixi varisi kimi meydana çıxmış dövlət xadimi fenomenidir. Prezident İlham Əliyev isə dövlətçilik fəaliyyətində

Heydər Əliyevin siyasi təlimini yaradıcılıqla inkişaf etdirən, mövcud dünya düzəni reallıqları ilə daha da zənginləşdirən, seçdiyi yolda qətiyyətlə və inamla irəliləyən yeni tipli qüdrətli liderdir.

## 2023

***Hacıyev İ. Azərbaycanla adı qoşa çəkilən Ümummilli lider / İsmayıl Hacıyev // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, Xüsusi buraxılış, 2023, s. 11-17***

Məqalədə görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə həyata keçirdiyi tədbirlər nəticəsində ittifaq büdcəsindən respublikaya ayrılan vəsaitin artırılmasının təmini, sənaye və kənd təsərrüfatının inkişafı, kadr hazırlığına xüsusi fikir verilməsi, yaşayış sahələrinin genişləndirilməsi, ölkəmizin iri sənaye respublikasına çevrilməsi qeyd edilmişdir. Eyni zamanda Ulu öndərin hakimiyyətinin ikinci dövründə ölkəmizi xaos və qarşıdurmadan, vətəndaş müharibəsindən xilas etməsi, müstəqilliyimizi əbədiyyətə çevirməsi, Xəzər neftini dünya üçün yenidən kəşf edib, onun dünya bazarına çıxarılmasına nail olması, ordu quruculuğunun təmin edilməsi, əsaslı islahatlar aparılması, yeni Konstitusiya hazırlanaraq qəbul edilməsi araşdırılmışdır.

***

***Qasımov R. Əzəmətli insan haqqında dastan / Ramiz Qasımov // Olaylar qəz., 2023, 17-22 iyun, № 23, s. 9***

Məqalədə qədim və zəngin ədəbi ənənələrə malik olan Naxçıvanda ədəbiyyatın və ədəbiyyat adamlarının yaxından iştirakı, ədəbi mühitin nümayəndələrinin istiqlal mübarizəsinə öz əsərləri ilə qatqılar verməsi, xalqın oyanışı və milli azadlıq hərəkatına dəstək durmalarından bəhs edilir. Müəllif qeyd edir ki, ədəbiyyatımızda hər zaman ölkənin düşdüyü ağır hərbi-siyasi durum,

müstəqillik ideyaları və xalq hərəkatı, Ulu öndər Heydər Əliyevin Naxçıvanda Azərbaycanın müstəqilliyi və dövlətçiliyi naminə apadığı mücadilə başlıca mövzuya çevrilmişdi.

***

**_Quliyeva Z. Aərbaycanda müzey arxeologiyasının formalaşmasında Heydər Əliyevin rolu / Zeynəb Quliyeva // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, Xüsusi buraxılış, 2023, s. 154-157_**

Məqalədə Ümummillilider Heydər Əliyevin Azərbaycan elminə və mədəniyyətinə göstərdiyi qayğı muzeylərin timsalında işıqlandırılmışdır. Bu muzeylərdən bəzisi Azərbaycanda muzey arxeologiyası sahəsinin formalaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya Muzeyi bu diyarda muzey arxeologiyasının formalaşmasına töhfə verə bilər. Aparılan araşdırmalar nəticəsində muzeyin fəaliyyət istiqamətləri müəyyən edilmiş, həmçinin qarşıda duran problemlərlə bağlı təkliflər irəli sürülmüşdür.

***

**_Məmmədov E. Heydər Əliyev və onun siyasi kursu konstitusiyamızın Azərbaycan vətəndaşına verdiyi hüquqların təminatcısı kimi / Elxan Məmmədov // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, Xüsusi buraxılış, 2023, s.82-86_**

Məqalədə Ulu öndər Heydər Əliyevin uğurlu siyasəti sayəsində vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən dövlət siyasətindən, eləcə də davam edən siyasi kursun ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təminatı istiqamətində yeritdiyi siyasətin uğurlu nəticələrindən söhbət açılır.

***[Səfərli  H. 14 iyul 1969-cu il – Azərbaycanı inkişafa və tərəqqiyə aparan yolun başlandığı tarix / Hacıfəxrəddin Səfərli // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, Xüsusi buraxılış, 2023, s.40-46]***

Məqalədə Ümummillilider Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin birinci dövründəki fəaliyyətindən bəhs edilir. Qeyd olunur ki, 14 iyul 1969-cu ildə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan geridə qalmış aqrar ölkədən inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə, elm, təhsil və mədəniyyət mərkəzinə çevrildi. Güclü kadr potensialı yaradıldı. Yeridilən uğurlu siyasət nəticəsində inkişaf səviyyəsinə görə 15 müttəfiq respublika içərisində ön sıraya keçən Azərbaycan, SSRİ dağılarkən müstəqilliyə hazır olan iki respublikadan birinə çevrildi.